

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 169 (24.306)

*15 sentyabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Yeni formatda regional əməkdaşlıq ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacaq

### *Azərbaycan Prezidenti İlham Əliyev Tacikistana səfər edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə fəxri qonaq qismində iştirak etmək üçün sentyabrın 14-də Tacikistana səfərə gəlib.

Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistanın Baş naziri Koxir Rasulzada və digər rəsmi şəxslər qarşıladılar.

* * *



Sentyabrın 14-də Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.

Dövlətimizin başçısı İlham Əliyevi salamlayan **Prezident Emoməli Rəhmon** dedi:

– Hörmətli İlham Heydər oğlu, Sizi Tacikistanda salamlayıram. Elə bu yaxınlarda biz birlikdə Sizin Tacikistana dövlət səfərinizi həyata keçirdik. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzu edirəm. Sammitdə – Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak etmək üçün dəvətimizi qəbul etdiyinizə görə sağ olun.

**Prezident İlham Əliyev:** – Emoməli Şaripoviç, sağ olun. İlk növbədə, bu mühüm tədbirdə fəxri qonaq qismində iştirak etmək üçün dəvətinizə görə təşəkkürümü bildirmək istərdim. Mən bunu çox yüksək qiymətləndirirəm. Belə mühüm tədbirdə iştirak etmək mənim üçün böyük şərəfdir və xüsusilə yenidən gözəl Düşənbə şəhərində olmaq xoşdur.

**Prezident Emoməli Rəhmon:** – Sağ olun.

**Prezident İlham Əliyev:** – Siz mənim çox uğurla və yaxşı nəticələrlə keçən dövlət səfərimi qeyd etdiniz. Mən dialoqumuzu davam etdirmək məqsədilə Sizin üçün əlverişli vaxtda Azərbaycana dövlət səfəri etməyinizlə bağlı artıq Sizə rəsmi məktub göndərmişəm.

**Prezident Emoməli Rəhmon:** – Çox sağ olun.

* * *

Sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə fəxri qonaq qismində iştirak edib.

Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Tacikistan Prezidenti **Emoməli Rəhmon** qonaqları salamlayaraq dedi: – Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyev sammitimizin işində fəxri qonaq qismində iştirak edir. Sizi salamlayıram.

***

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** çıxışında vurğuladı: – Fəxri qonağımızı, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi xüsusi olaraq salamlamaq istəyirəm. Qardaş Azərbaycanın liderinin iştirakı xalqlarımızın çoxəsrlik dostluq tellərinin və qarşılıqlı anlaşmanın hərtərəfli möhkəmlənməsinə yönəlmiş səmimi səylərinin göstəricisidir.

Əminəm ki, bugünkü sammit, həqiqətən, əlamətdar olacaq və çoxplanlı əməkdaşlığımızın gələcək dinamikasını müəyyən edəcək.

***

Qırğızıstan Prezidenti **Sadır Japarov** çıxışında qeyd etdi: – Fürsətdən istifadə edərək mən də Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevi salamlamaq istəyirəm.

***

Türkmənistan Prezidenti **Sərdar Berdiməhəmmədov** çıxışında bildirdi: – İcazə verin, mən də Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə fəxri qonaq qismində iştirak edən hörmətli İlham Heydər oğlunu salamlayım.

***

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** dövlətimizin başçısının tədbirdə iştirakını yüksək qiymətləndirərək dedi: – Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevi bizim görüşümüzdə görməkdən şadam. Sizin iştirakınız region ölkələrinin Azərbaycan ilə dərin tarixi qarşılıqlı əlaqələrinin və əməkdaşlığın hazırkı yüksək səviyyəsinin daha bir təsdiqidir.

Ölkələrimizin gələcək nəqliyyat potensialını artırmaq məqsədilə sahə nazirlərin görüşləri çərçivəsində Mərkəzi Asiyanın nəqliyyat və tranziti haqqında sazişlər hazırlamasını, Çin, Cənubi Asiya və Yaxın Şərq ölkələrinə, Avropa İttifaqına çıxış üçün səmərəli nəqliyyat dəhlizlərinin konkret mexanizmlərinin biznes üçün sərfəli keçid tarifləri tətbiq edilməklə yaradılmasını, nəqliyyat xidmətlərinin liberallaşdırılması üzrə tədbirlər planının tərtib edilməsini, icazə prosedurlarının optimallaşdırılmasını, beynəlxalq daşımaların inteqrasiyalı rəqəmsal platformalarının yaradılması məsələsinin nəzərdən keçirilməsini, azərbaycanlı tərəfdaşlarımızın birgə işimizə fəal qoşulmasını təklif edirəm.



***

Sonra çıxış üçün söz dövlətimizin başçısına verildi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli Emoməli Şaripoviç.

Hörmətli dövlət başçıları, əziz dostlar.

Əvvəlcə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşünün işində fəxri qonaq kimi iştirak etmək məqsədilə dəvətə görə Tacikistan Prezidenti, hörmətli Emoməli Şaripoviç Rəhmona təşəkkür etmək istərdim. Eyni zamanda bu tədbirdə Azərbaycanın iştirakına verdikləri dəstəyə görə hörmətli həmkarlarıma minnətdarlığımı bildirirəm.

Mən bu il qardaş Tacikistana ikinci dəfə səfər edirəm. Apreldəki dövlət səfərim, səfər çərçivəsində qəbul olunmuş qərarlar və imzalanmış sənədlər münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdi. Tacikistan Prezidentinin Azərbaycana dövlət səfərini səbirsizliklə gözləyirik. Əminəm ki, səfər əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edəcək. Bu fürsətdən istifadə edərək dost Tacikistan xalqını Müstəqillik Günü münasibətilə təbrik etmək istəyirəm.

Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir.

Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, birbirimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur.

Mən Məşvərət Şurasının işində ilk dəfədir, iştirak edirəm və əminliyimi bildirirəm ki, regional əməkdaşlığın bu formatı ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına zəmin yaradacaq.

Son iki il ərzində mən Mərkəzi Asiya dövlətlərinə doqquz səfər etmişəm. Bu müddət ərzində bütün qardaş dövlətlərin başçıları Azərbaycana dəfələrlə səfərlər ediblər. İlin sonuna qədər qarşılıqlı səfərlərin fəal dinamikası davam etdiriləcək.

İkitərəfli əməkdaşlığın mühüm meyarlarından biri qarşılıqlı ticarətin və sərmayələrin artımıdır. Sevindirici haldır ki, həmin iki istiqamət üzrə göstəricilər davamlı artıma malikdir. Keçən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi 3 dəfədən çox, bu ilin 7 ayı ərzində isə daha 50 faiz artıb.

Birgə sərmayə fondları yaradılıb, növbəti 3 il üzrə 1 milyard dollardan artıq qarşılıqlı sərmayələrin həcmi razılaşdırılıb. Biz artıq sənaye əməkdaşlığı, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma, kənd təsərrüfatı, xüsusən də pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində çoxsaylı layihələri həyata keçiririk. Mehmanxana işi və turizm sahəsindəki sərmayə layihələri ilk icra mərhələsindədir. Biz Mərkəzi Asiyadan olan şirkətlərin bu yaxınlarda Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağını görürük.

Nəqliyyat və logistika sahəsi münasibətlərimizdə mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkəsidir. Əks istiqamətdə tranzitin əhəmiyyəti də az deyil. Mərkəzi Asiyadakı qardaşlarımız bilirlər ki, Azərbaycanın bütün nəqliyyat-logistika infrastrukturu onlar üçün açıqdır.

Şərq-Qərb marşrutu ilə yükdaşımalarına artan tələbatı təmin etmək məqsədilə Bakı-Tbilisi-Qars dəmir yolu tərəfimizdən müasirləşdirilir. Gələn il həmin yol ilə daşınan yüklərin həcmi 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Buna paralel olaraq Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır.

Azərbaycan Xəzərdə 50-dən artıq gəmidən ibarət ən iri ticarət donanmasına malikdir. Mərkəzi Asiya ölkələrindən yük göndərənlərin artan tələbatını nəzərə alaraq biz gəmiqayırma zavodunun imkanlarının genişləndirilməsi üzərində fəal çalışırıq. Yeni sərmayə layihələri başa çatdıqdan sonra istehsal olunan tanker və quru yükdaşıyan gəmilərin sayı bu gün ildə 6 gəmidən 10-15 gəmiyə qədər artacaq.

Daha böyük həcmdə tranzit yüklərini cəlb etmək üçün tariflərin optimallaşdırılmasını, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsini və ahəngdarlığını təmin etmək zəruridir. Tranzit daşımaların şəffaflığının və daşımalar prosesinin iştirakçıları üçün bərabər şərtlərin təmin edilməsində mühüm meyarlardan biri Şərq-Qərb nəqliyyat dəhlizinin rəqəmsallaşdırılmasıdır.

Ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal çalışdığımız "Rəqəmsal İpək Yolu" layihəsidir.

Hörmətli həmkarlar, bu il BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nın yaradılmasının 25 ili tamam olur. Mən dəyərli dövlət başçılarına rəsmi dəvətləri göndərmişəm və bu ilin noyabrında Bakıda Sammitdə sizi görməkdən məmnun olaram.

*Ardı 2-ci səhifədə*

Bu gün keçirilən görüşə dəvətə görə bütün dövlət başçılarına bir daha təşəkkürümü bildirmək istəyirəm və Mərkəzi Asiyanın qardaş xalqlarına sülh, əmin-amanlıq arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Prezident **Emoməli Rəhmon** çıxışına görə dövlətimizin başçısı İlham Əliyevə təşəkkür etdi.

***

Çıxışlardan sonra BMT-nin Baş katibi Antonio Quterreşin videomüraciəti təqdim olundu.

Daha sonra Məşvərət görüşünün Birgə Bəyanatı imzalandı.

***

Qeyd edək ki, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinin keçirilməsi təşəbbüsü 2017-ci ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən irəli sürülüb. Birinci görüş Qazaxıstanda, ikinci görüş Özbəkistanda, üçüncüsü Türkmənistanda, dördüncüsü isə Qırğızıstanda keçirilib.

* * *



Sentyabrın 14-də Düşənbədə Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun təltifolunma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.



Sentyabrın 14-də Tacikistanın paytaxtı Düşənbə şəhərində “Dostluq axşamı” konsert proqramı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən prezidentlər konsertə baxıblar.

* * *

Sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edən digər dövlət başçıları Düşənbədəki “EKSPO Mərkəzi Asiya 2023” sərgisi ilə tanış olublar.

**AZƏRTAC**

## Naxçıvanda ədliyyə fəaliyyətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi üzrə tədbirlər görülür

*Sentyabrın 14-də Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov Naxçıvan Muxtar Respublikasında vətəndaşların qəbulunu keçirib.*

Nazir əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramını bildirib, Heydər Əliyev Muzeyində Ulu Öndərə həsr olunan maraqlı ekspozisiyalarla tanış olub.

Eyni zamanda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüş keçirilərək Naxçıvanda ədliyyə və məhkəmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı faydalı fikir mübadiləsi aparılıb.

Sonra muxtar respublikanın Ədliyyə Nazirliyində keçirilən qəbulda Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərə dair aidiyyəti tapşırıqlar verilib. Bu zaman Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılıb.

Səfər zamanı nazirliyin iş şəraiti ilə tanış olunub, ədliyyə işçiləri ilə görüş keçirilib. Görüşdə nazir Fikrət







Məmmədov çıxış edərək bu il 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin mənalı ömründən və zəngin dövlətçilik irsindən bəhs edib, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın xalqımıza bəxş etdiyi böyük şəxsiyyət Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayıb.

Ulu Öndərin Naxçıvanda fəaliyyəti dövründə respublikamızın müstəqilliyi yolunda atdığı mühüm tarixi addımları – muxtar respublikanın adından “sovet sosialist” sözlərinin çıxarıldığını, üçrəngli milli bayrağımızın ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olunduğunu, dünya azərbaycanlılarının həmrəyliyi gününün müəyyən edildiyini, 20 Yanvar faciəsinə siyasi qiymət verildiyini, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildiyini xüsusi qeyd edib.

Bildirilib ki, Ümummilli Liderin əbədi həyat verdiyi müstəqil Azərbaycan dövləti bu gün Ulu Öndərin siyasi varisi, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə özünün ən qüdrətli dövrünü yaşayır. Vətən müharibəsində doğma torpaqlarımız işğaldan azad edilərək sürətlə bərpa olunur, bu istiqamətdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən mühüm layihələr həyata keçirilir.

Müşavirədə, həmçinin respublikamızın hərtərəfli tərəqqisinə uyğun olaraq aparılan mütərəqqi ədliyyə və məhkəmə islahatlarından danışılıb, Naxçıvanda da hüquq institutlarının inkişafı qeyd olunaraq muxtar respublikanın Ədliyyə Nazirliyinin strukturunun yeni çağırışlara uyğun təkmilləşdirilməsi, ədliyyə orqanlarının, o cümlədən məhkəmə ekspertizası fəaliyyətinin müasirləşdirilməsi, ştat vahidlərindən səmərəli istifadə olunması və digər məsələlər müzakirə olunub, tapşırıqlar verilib.

Eyni zamanda muxtar respublikada hüquqi xidmətlərə və ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, bu sahədə şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə rəqəmsal innovasiyaların geniş tətbiqi ilə bağlı tədbirlər müəyyən olunub, milli qanunvericiliyin *e-qanun.az* elektron resursunun Naxçıvan Muxtar Respublikası hüquqi aktların elektron bölməsi istifadəyə verilib.

Tədbirlərdə muxtar respublikanın ədliyyə orqanlarına əməli köməklik göstərmək məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Strateji planlaşdırma və monitorinq, Ədliyyə sahəsində xidmətlər baş idarələrinin, İnformasiya texnologiyaları və innovasiyalar idarəsinin, Cəzaların icrasına nəzarət üzrə Müfəttişliyin və Vətəndaşların qəbulu şöbəsinin rəhbərləri iştirak ediblər.

***Azərbaycan Respublikası Ədliyyə Nazirliyi mətbuat xidmətinin məlumatı***

## Sosial qayğıya ehtiyacı olan uşaqlara məktəbli forması və dərs ləvazimatları verilib



*Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 15 sentyabr – Bilik Günü münasibətilə aztəminatlı, valideynlərini itirmiş, sağlamlıq imkanları məhdud uşaqlara məktəbli forması və dərs ləvazimatları verilib.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi Aparatının əməkdaşı Pənah Mehdiyev ölkəmizdə digər sahələr kimi təhsilə göstərilən xüsusi diqqət və qayğıdan danışıb.

Qeyd edilib ki, dövlət hər zaman qayğıya ehtiyacı olan ailələrə diqqət ayırır, onların problemləri ilə yaxından maraqlanır. Həmçinin sosial vəziyyətindən asılı olmayaraq, hər bir şəxsin təhsil almasında yaxından iştirak edir. Ölkəmizin digər bölgələrində olduğu kimi, muxtar respublikada da mütəmadi olaraq sosial əhəmiyyətli tədbirlər həyata keçirilir.



Vurğulanıb ki, ölkə başçısı tərəfindən muxtar respublikanın sosial-iqtisadi inkişafı sahəsində qarşıya qoyulan məqsədlərə çatmaq üçün bundan sonra da əzmkarlıq və səy göstəriləcək.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, təhsil nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Ovni Muradov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Nicat Babayev çıxışlarında qeyd ediblər ki, muxtar respublikada bütün uşaqlar dövlət qayğısı ilə əhatə olunur, onların sağlam böyüməıəri, biliklərə yiyələnmələri, intellektual inkişafı, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər gənc kimi formalaşması diqqət mərkəzində saxlanılır. Sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, təkvalideynli, şəhid və qazi uşaqlarının asudə vaxtının səmərəli təşkili, bilik və bacarıqlarının artırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilir.

Çıxış edənlər uşaqları Bilik Günü münasibətilə təbrik edib, onlara təhsillərində uğurlar arzulayıblar.

Valideynlər adından çıxış edən Mətanət Hüseynova muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirib.

Qeyd edək ki, sosial qayğıya ehtiyacı olan 896 uşağa, o cümlədən 500 sağlamlıq imkanları məhdud uşaq, 396 aztəminatlı, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, təkvalideynli, çoxuşaqlı ailələr və qazi uşaqlarına məktəbli formaları və dərs ləvazimatları verilib. Həmin gün aidiyyəti təşkilatların və rayon icra hakimiyyətlərinin nümayəndələri tərəfindən muxtar respublikanın rayonlarında da analoji tədbirlər keçirilib, sosial qayğıya ehtiyacı olan uşaqlara məktəbli formaları və dərs ləvazimatları təqdim edilib.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Vətəndaşların müraciətləri dinlənilib

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov dünən Qorçulu, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli rayonun Dəstə kəndində növbəti vətəndaş qəbulu keçiriblər.

Qəbul zamanı kənd sakinlərinin müxtəlif sahələrdə qarşılaşdıqları çətinliklər və həmin çətinliklərin həlli istiqamətində etdikləri təkliflər dinlənilərək məsul şəxslərin iştirakı ilə müvafiq sahələr üzrə müzakirələr aparılmış, görüləcək işlər müəyyənləşdirilmişdir.

Vətəndaşlar yekunda göstərilən yüksək diqqət və qayğıya, rayon ərazisində aparılan abadlıq-quruculuq işlərinə görə dövlətimizə minnətdarlıqlarını bildirmişlər.

**Xəbərlər şöbəsi**

# İşə qəbul edilən gənc müəllimlərlə görüş



Tədbiri Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Ovni Muradov giriş sözü ilə açaraq ölkəmizdə, o cümlədən muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, bu gün muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almış, öz fəaliyyəti ilə seçilən müəllimlərin əməyi yüksək qiymətləndirilmişdir.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikada gənclərə göstərilən yüksək qayğılardan biri də onların işlə təmin olunmasıdır. Bildirilib ki, 2018-ci ildən bu günədək keçirilən müsabiqələrdə yüksək nəticə göstərənlərdən 1285 gənc işlə təmin edilmişdir.

Ovni Muradov növbəti müəllimlərin işə qəbulu müsabiqəsinin də uğurla başa çatdığını qeyd edərək bildirib ki, 2023-2024-cü tədris ili üçün işə qəbul üzrə müsabiqədə yüksək nəticə göstərmiş 136 nəfər sentyabrın 15-dən ümumtəhsil məktəblərində müəllim kimi fəaliyyətə başlayacaqdır. İşə qəbul edilənlərdən 36-sı stimullaşdırıcı tədbirlərin tətbiq olunduğu məktəbləri seçib. Muxtar respublikanın şəhər və rayon məktəbləri ilə yanaşı, ucqar dağ kəndlərində də yaradılan müasir təhsil infrastrukturunun nəticəsidir ki, gənc müəllimlərdən bəzisi şəhər və rayon mərkəzlərində yaşayalar da, ucqar kənd məktəblərində işləməyə üstünlük veriblər.

Qeyd edilib ki, işə qəbul olunan müəllimlər üçün sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən STEAM Təlim-Tədris Mərkəzində 3 günlük "İnnovativ müəllim" təlimi də keçirilib.

Ovni Muradov gənc müəllimləri yeni işə təyin olunmaları və Bilik Günü münasibətilə təbrik edib, onlara hərtərəfli biliyə, geniş dünyagörüşünə, xalqın milli-mənəvi dəyərlərinə yiyələnən, millətini və Vətənini sevən nəsil yetişdirilməsində səylə çalışmaları ilə bağlı tövsiyələrini çatdırıb.

Tədbirdə gənc kadrlar adından çıxış edən Aygül Rzayeva işlə təmin olunmalarına, onlar üçün göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonra "İnnovativ müəllim" təlimində iştirak edən müəllimlərə sertifikatlar təqdim olunub.

**✍ Aidə İBRAHİMOVA**

# Yerin təkinin istifadəyə verilməsi üzrə növbəti hərrac keçirilib



Dünən Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən yerin təkinin istifadəyə verilməsi üzrə hərrac keçirilib.



Keçirilən tədbirdən sonra ***Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Hərracların təşkili və icazələr şöbəsinin müdiri Cəvani Ağayev*** jurnalistlərə müsahibə verib: "Bu gün Naxçıvan Muxtar Respublikasında yerin təkindən istifadə məqsədilə növbəti hərracımız keçirilib. Hərrac Culfa rayonunda yerləşən Əlincəçay qum-çınqıl yatağında yerin təkindən istifadə məqsədilə keçirildi. Hərracımız rəqabətli olduğu kimi, uğurlu və yaxşı təşkil edildi. Hərracımızın qalibi "Arkoz İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyəti oldu, bu sahədəki fəaliyyətlərində onlara uğurlar arzulayırıq. Hərracı keçirməkdə məqsədimiz bu sahədə sağlam rəqabəti artırmaq və sağlam mühit yaratmaqdır. Bu, davamlı olaraq təşkil olunacaq və növbəti aylarda da yeni auksionlar keçiriləcək. Onu da qeyd edim ki, sentyabrın 19-da da növbəti hərrac olacaq".

**✍ Ceyhun MƏMMƏDOV**

*15 sentyabr Bilik Günüdür*

# Hər bir ölkənin inkişafını təmin edən başlıca şərtlərdən biri təhsildir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il sentyabrın 15-i ölkəmizdə "Bilik Günü" kimi qeyd olunur.*

Ötən əsrin 70-ci illərində Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən təhsil strategiyası Azərbaycanda ixtisaslı milli kadrların hazırlanmasının əsasını qoymuş, iqtisadi potensial inkişaf etdirilmiş, sosial-mədəni, elm-təhsil və milli-mənəvi dəyərlər dirçəldilmiş, bu yolla gələcək müstəqillik üçün etibarlı zəmin yaradılmışdır. Dahi şəxsiyyət ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmiş, bu sahədə kompleks islahatlar həyata keçirilmişdir. ***"Müstəqil Azərbaycan Respublikasında təhsil, tərbiyə işi dövlətin əsas vəzifəsidir, dövlət başçısının, Prezidentin xüsusi qayğısı altındadır və onun əsas vəzifələrindən biridir"***, – deyən Ulu Öndərin təhsil siyasəti bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısı tərəfindən təhsil sistemində yenidənqurmanın həyata keçirilməsi, əlverişli şəraitin yaradılması, təhsilin inkişafı istiqamətində Dövlət proqramları və sərəncamların imzalanması bu sahənin daha da inkişaf etdirilməsinə xidmət göstərir.





Ulu Öndərin müəllifi olduğu təhsil strategiyası, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Müstəqillik illərində muxtar respublikada 200-dən çox təhsil müəssisəsi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Muxtar respublikada müasir tələblərə cavab verən təhsil müəssisələrinin tikintisi hər il davam etdirilir. Təkcə 2022-2023-cü tədris ili ərzində Babək rayonunun Vayxır, Ordubad rayonunun Xanağa, Şərur rayonunun Həmzəli, Vərməziyar kənd tam orta məktəblərinin yeni binaları və STEAM Təlim-Tədris Mərkəzi istifadəyə verilmiş, təhsil ocaqlarının maddi-tədris bazası gücləndirilmişdir. Hazırda Şahbuz və Babək rayonlarında məktəbdənkənar təhsil müəssisələrinin, Babək rayonunda Nehrəm qəsəbə 3 nömrəli, Hacıvar, Ordubad rayonunda Azadkənd, Şərur rayonunda Təzəkənd tam orta məktəblərinin tikintisi və ya yenidən qurulması istiqamətində işlər davam etdirilməkdədir. Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə isə bərpa-gücləndirmə işləri istiqamətində işlər davam etdirilir.

Muxtar respublikada təhsil müəssisələrinin müasir tədris vəsaitləri və informasiya texnologiyaları ilə təminatına xüsusi diqqət yetirilir. Artıq məktəblər ən müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərinə 600 mindən çox latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat və 3 milyona yaxın dərslik verilmişdir. Yeni tədris ili üçün 190 mindən artıq dərslik bölgü əsasında ümumtəhsil məktəblərinə çatdırılmışdır.

Ümumtəhsil məktəblərində STEAM təhsil metodunun tətbiqi istiqamətində də zəruri işlər həyata keçirilir. Bu günədək 156 təhsil müəssisəsində STEAM kabinəsi yaradılmışdır. Eyni zamanda STEAM təhsil metodunun daha geniş tətbiqi məqsədilə Naxçıvan şəhərində STEAM Təlim-Tədris Mərkəzi yaradılaraq zəruri avadanlıqlarla təmin olunmuşdur. Hazırda əlavə olaraq 50 təhsil müəssisəsində STEAM kabinələrinin yaradılması istiqamətində işlər davam etdirilir.



Ümumtəhsil məktəblərində şagirdlərin yalnız tədris prosesindəki fəaliyyəti deyil, eyni zamanda onların asudə vaxtlarının səmərəli təşkili, istedadlı şagirdlərin üzə çıxarılması, onların yaradıcılıq potensiallarının inkişaf etdirilməsi də diqqətdə saxlanılmışdır. Məktəblilər arasında müntəzəm olaraq dram, təsviri və dekorativ-tətbiqi sənət, milli musiqi və rəqs, gənc istedadlar müsabiqələri keçirilir, "Sabahın müəllimi", "Sabahın tədqiqatçıları" layihələri uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Müəllim peşəsini seçən gənclərimizin sayı hər il artmaqdadır. Qəbul imtahanlarında yüksək bal toplamış bir çox gənclərimiz müəllim olmaq istəyirlər. Çünki müəllimlərin iş şəraiti yaxşılaşıbdır, müəllimlər gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, müəllimlərin əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz yüksək maaş alırlar..."*** Son illərdə muxtar respublikada pedaqoji kadr hazırlığındakı təkmilləşmələr, yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması, ümumtəhsil məktəblərinin bilikli pedaqoji kadrlarla təmin olunması diqqətdə saxlanılmışdır. 2022-2023-cü tədris ilində ümumtəhsil məktəblərində işə qəbulla bağlı keçirilən müsabiqələrdə uğurlu nəticə qazanan gənc kadrlardan 230-u müəllim, 66-sı isə məktəblərdə müxtəlif vəzifələrə təyin olunmuşdur. Yeni tədris ili üçün isə ümumtəhsil məktəblərində 200 vakant yer üçün müəllimlərin işə qəbulu həyata keçirilmiş, onlardan ən yüksək nəticə göstərən 135 gənc kadr 2023-2024-cü tədris ilindən pedaqoji fəaliyyətə başlayacaqdır. Muxtar respublikada müəllim əməyi daim yüksək qiymətləndirilmiş, 400-dən çox müəllim Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif edilmişdir. Yaradılan şərait və müəllim hazırlığı istiqamətində görülən tədbirlər onların fəallığını artırmış, cari tədris ilində ölkə üzrə keçirilən Təhsildə inkişaf və innovasiyalar üzrə VII qrant müsabiqəsində muxtar respublika müəllimlərindən 2-si qalib olmuşdur.

Yeni təhsil metodlarının tətbiqi şagirdlərin müxtəlif səviyyəli bilik yarışlarında iştirak edərək uğurlu nəticə qazanmasına öz müsbət təsirini göstərmişdir. Ötən tədris ilində olimpiada və müsabiqə hərəkatı gücləndirilmiş, muxtar respublika və respublika fənn olimpiadaları ilə yanaşı, SASMO, "Amerikan" və "Kenquru" Beynəlxalq riyaziyyat müsabiqə və olimpiadaları, "HIPPO" ingilis dili olimpiadası, məntiq olimpiadası və respublika fənn müsabiqələri keçirilmişdir.



Keçirilən olimpiada və müsabiqələrdə, ümumilikdə, muxtar respublika üzrə 5 minə yaxın şagird iştirak etmiş, onlardan 251-i qalib olmuşdur. Beynəlxalq STEAM Azərbaycan Festivalında muxtar respublika məktəbliləri 1-ci, 2-ci, və 3-cü yerlərin qalibi olmuşdur. Həmçinin onlar Bakıda keçirilən Dünya Robot Olimpiadasında iştirak edərək ölkə birincisi olmuş, 7-9 noyabr 2023-cü il tarixlərdə Panama Respublikasında keçiriləcək olimpiadanın final mərhələsində ölkəmizi təmsil etmək hüququ qazanmışlar.

Bu gün muxtar respublikanın təhsil müəssisələrində yaradılan müasir tədris şəraiti, mütərəqqi təhsil metodlarının tətbiqi, müəllim əməyinə verilən yüksək qiymət sayəsində tədrisin səviyyəsi yüksəlmiş, 2022-2023-cü tədris ilində ümumtəhsil məktəblərini tam orta təhsil bazasında bitirən məzunlardan 20-si "Qızıl", 24-ü "Gümüş" nişana, 32-si fərqlənmə attestatına, ümumi orta təhsil bazasından isə 88-i fərqlənmə attestatına layiq görülmüşdür.

2022-2023-cü tədris ili üzrə ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla, 3166 məzun bitirmiş, onlardan 2962-si, yaxud 94 faizi ali və orta ixtisas təhsili müəssisələrinə sənəd vermiş, onlardan 196-sı 500-700 intervalında bal toplamış, II ixtisas qrupunda ölkə üzrə ən yüksək nəticəni muxtar respublika məktəblisi göstərmişdir.

Məktəblərdə şagirdlərin elmi biliklərlə yanaşı, sağlam və yüksək vətənpərvərlik ruhunda böyüdülməsinə də xüsusi qayğı ilə yanaşılır, hərbi hazırlıq və idman dərslərinə mühüm əhəmiyyət verilir. Bunun nəticəsidir ki, son illər gənclər arasında hərbi təhsilə də maraq xeyli artmışdır. 2023-cü ildə muxtar respublikanın ümumtəhsil məktəblərindən Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 309 şagird sənəd vermişdir. Həmin şagirdlərdən 45-i hərbi liseyə qəbul olaraq kursant adını qazanmışdır.

Naxçıvan Qızlar Liseyinə və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə 2023-2024-cü tədris ili üçün qəbul imtahanları keçirilmiş, imtahanların nəticələrinə uyğun olaraq liseylərə ən yüksək nəticə göstərən 60 şagird olmaqla, ümumilikdə, 120 şagird qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramında digər sahələr kimi, təhsilin bütün pillələrinin inkişafı üçün də prioritet istiqamətlər müəyyənləşdirilib. Hazırda Dövlət Proqramının icrası istiqamətində mühüm tədbirlər həyata keçirilir. Proqrama uyğun olaraq Naxçıvan şəhərində yeni internat tipli məktəb, həmçinin əlavə olaraq 1000 şagird yerlik məktəb binalarının inşası, əmək bazarının tələblərinə cavab verən müasirtipli peşə təhsili müəssisələrinin təşkili, ümumi təhsil müəssisələrinə rəhbər və pedaqoji heyətin mərkəzləşdirilmiş müsabiqə vasitəsilə işə qəbulu, STEAM siniflərinin zənginləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi, "Rəqəmsal bacarıqlar" layihəsinin tətbiqi, "Beynəlxalq olimpiadalara hazırlıq mərkəzi"nin, ümumtəhsil məktəblərinin nəzdində icma əsaslı məktəbəqədər təhsil qruplarının yaradılması, İKT üzrə maddi-texniki bazanın təkmilləşdirilməsi, təhsil müəssisələrinin kompüter, proyektor və elektron lövhələrlə təmin edilməsi, veb-kameraların quraşdırılması planlaşdırılır. Dövlət Proqramına uyğun olaraq təhsildə həyata keçiriləcək kompleks tədbirlər Bilik Gününün yüksək əhval-ruhiyyə ilə qeyd olunmasına əsas verir. Hər ötən təhsil ilini uğurlarla başa vuran məktəblərimiz daha böyük nailiyyətlər qazanmağa səy göstərir, bu nailiyyətlərin əsasını elə ilk addımlardan – Bilik Günündən qoyurlar. Bu gün ümumtəhsil məktəblərində yaradılan şərait, təhsil işçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, bir sözlə, ölkəmizdə insan kapitalına böyük önəm verilməsi hər bir valideyndə övladının yaxşı təhsil alacağına, onun gələcəyinin etibarlı əllərdə olduğuna əminlik yaradır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Hər anı bir ömrə bərabər məktəb illəri

*(esse)*

*Bu uzun, keşməkeşli həyat yolunda yeridiyimiz, büdrəyərək yıxıldığımız, fəqət yenə də sağlam şəkildə ayaqda saxlayan, bizi böyüdən məktəb illəridir.*



Bu gün Azərbaycanın bütün bölgələrində ilk dərs günüdür! Bu gün ilklərin təməl günü, sağlam addımlarının günüdür! Həmin gün dərsə gedən körpələr arasında məktəb zəngini ilk dəfə eşidən birincilər daha həyəcanlı, daha sevincli olacaqlar. Çünki onlara qucaq açan, cığır açan məhz həyatdır. Məktəb də həyatın özü deyilmi? Elə bir həyat ki əvvəl sən zəng çalırsan, sonra zəng çalınır. Hər ikisindən qalan tək xatirə ağ fondakı qara şəkillərdir. Məktəbin rəngli albomlarında, həyatın yeganə toxuna bilmədiyi daşlaşan, heykəlləşən şəkillər! Yeni tədris ilinin başlanmasına ən çox sevinənlər, sözsüz ki, birincilər olur. Bu gündən onlar məktəbi öz rəngarəng dünyalarının on bir ilinə sığdıracaq. Anayla başlayan hərfdə böyüyüb, Vətənlə tamamlanıb, zəhmətə qatlaşacaq hər bir birinci, həqiqətən də, gələcəyimizə bir inci olacaq. Bu yolda onlardan mübhəm sevgisini gizlətməyən, bələdçi və mayak rolunu oynayan, şübhəsiz ki, ibtidai sinif müəllimləri olacaq. Bu balaca dəcəllərimiz öz oyuncaqlarından, nağıl dünyalarından, cizgi filmi qəhrəmanlarından ayrılıb, məktəb həyatına qədəm qoyduqları ilk gün, ilk dərs onların yaddaşında silinməz izlər buraxacaq. Aldıqları bilik və bacarıqla elm və bilik yollarına addımlayan körpə fidanların sağlam əqidə, aydın zehniyyətlə böyüyərək vətənpərvər ruhda tərbiyə olunacağına heç şübhəmiz yoxdur. Bu ruhda böyüyən körpə fidanlarımızın səsi gələcək on bir il sonra parta arxasından: "Məktəb illəri, məktəb illəri...ömrümün ən şirin, duyğulu, qayğısız günləri".

Həyatımızın ən mənalı, ən şən, ən qayğısız və nəşəli dönəmi məktəblə bağlıdır. Məktəbdə yaşanan acılı, şirinli xatirələr uşaq yaddaşımıza həkk olunaraq bizi ömürboyu lent yazısı kimi ağ-qara fonda izləyir. Əlimizə ilk qələmi parta arxasında otrarkən alır, böyük "A", kiçik "a" yazmağı öyrədən müəllimlərimiz sayəsində "Ana", "Ana Vətən", "Ana torpaq" yazmağı qavrayırıq. Bax buradan başlayır ana, ana torpaq, millət, ölkə və sevgi qavrayışları. On bir il bir parta arxasında oturub ikinci evimiz sayılan məktəb bizə ilk parta yoldaşlarımızı, dəcəlliklərimizi, təmiz və saf sevgilərimizi ərməğan edir.

Ah, necə gözəl mənzərədir! Ovuc içi boyda əlləri ovuclarına alıb, valideynlərin övladlarını məktəbə aparmaq duyğusu.... Müəllimlərin öz birincilərini bağrına basıb onbirincilərini uğurlaması... Məktəbdə yaşanan hər duyğu nöqtəsini qoya bilmədiyimiz fərqli sərgüzəştlər yaradır. Əminik ki, hər kəsin həyatında iz qoyan bu sərgüzəştlər hər kəsə daim işıq, sönməyən şam olmuşdur. Bu işıq bizə tükənməz arzular, xəyallar bəxş etmişdir.

Xəyallarımızın başlanğıcı olan məktəb, həyatımızın enişli-yoxuşlu yollarında həmişə zirvədə olaraq bizi intizamlı, idarəçi, güclü, mübariz və prinsipial, vicdanlı vətəndaş olmağa səsləyir. Həyatımıza səs salan bu yol bizi daha yüksək səslərə getməyimizə yol açır. Bu yolda isti elm ocağı yatır. Ayaq bağımızın qopmadığı, əllərimizin şükür etdiyi, qızındığı, ürəyimizin qaldığı, bu ocaq bizə yanımızda daşıyacağımız yeni közlər bəxş edərək o odda yanmağı, yenidən başlamağı təbliğ edir.

Hər yolun bir sonu olduğu kimi, məktəb həyatının da bir sonu başlayır. Bu yolun sonu bizi ya ailə qurmağa, ya hərbi xidmətə, ya da hamımızın ən ümdə arzusu olan ali məktəblərə aparır. Hər şey eşitdiyimiz bir zənglə başlayır, son zəng! Həmin gün çalınan o zəng bizi həyatımızda təmin olunduğumuz bütün maddi və mənəvi məsuliyyətdən azad edərək daha böyük məsuliyyətlərə, üfüqlərə yollayır. Bəli, son zəng bizi ən məhrəm hisslərimizdən ayıraraq sanki böyüməyə, inkişaf etməyə, həyatın məsuliyyət və qayğılarını öz çiynimizə götürmək üçün çalınır. Artıq nə o ağuşda tutulan əllərin sahibi, nə o yollar var. Nə məktəb həyəti, nə intizarını gözümüzü yummadan səhərəcən gözlədiyimiz sinif yoldaşlarımız var. Nə o üstü cızılmış, bozarmış partalar, nə əli təbaşirli müəllimlərimizin səmimi çöhrəsi var. Artıq "Bənövşə, bəndə düşə, bizdən sizə kim düşə" sırğa olub qulaqlarımızdan, xəyal olub gözlərimizdən asılıb. Artıq məktəb partalarının boş olan yeri yeni birinciləri salamlayıb "xoş gəldin!" edir. Daha acqarına əzbərlədiyimiz "bir vardı, biri yoxdu" nağılların yerini "bir zaman orada biz otururduq, indi isə birincilər" fikri ilə dəyişib, həyata davam edirik.

Başlayır universitet həyatı! Yenə qaynar, yenə izdihamlı, yenə kimsə dərsə qaçır, kimsə kitablarını sinəsinə sıxıb oturacağı yeri, qrup yoldaşlarını, müəllimlərini həsrətlə gözləyir, alacağı bilikləri dərk edib həyatına tətbiq etmək haqqında düşünür. Bax, beləcə, yeni sinif otaqları, yeni müəllimlər, yeni tədris ili və sirli-sehrli bilik xəzinəsinin qapıları yenidən sizinlə üz-üzə! Artıq müstəqil, təkbaşına, siz özünüzlə üz-üzəsiniz. Qayğılı, özünü dərk edən, məsuliyyətli cəmiyyətin bir fərdi – tələbəsi dövlətinə güvənir, inkişafa atılır, yeniliyə, gələcəyə ümidlə baxır, təhsilinə bel bağlayır... Bu, daim davam edir, çünki hər Bilik Günü hər kəsin əlindən tutaraq yeni bir günə aparır.

✍ **Fariz ƏHMƏDOV**

## "Ali təhsil müəssisəsinin institusional akkreditasiya üzrə qiymətləndirmə meyarları" mövzusunda təlim keçirilib

*Naxçıvan Dövlət Universitetinin və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təşkilatçılığı ilə ali təhsil ocağında akkreditasiya qaydalarına dair təlim keçirilib.*

Üç gün davam edən təlimin ilk günündə universitetin rektoru, dosent Elbrus İsayev çıxış edərək Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Təlim və metodologiya şöbəsinin müdiri Simnar Mamedovu universitetdə görməkdən məmnunluğunu bildirərək təlimin işinə uğurlar arzulayıb. Rektor akkreditasiya prosesinin əhəmiyyətindən bəhs edib, bunun ali təhsil ocaqları üçün üstünlüklərini, təhsilin bütün pillələrində inkişafın əsas meyarlarından birinin akkreditasiya olduğunu qeyd edib.



Sonra təlimçi Simnar Mamedov təmsil etdiyi qurumun fəaliyyət istiqamətləri haqqında geniş məlumat verib. Üç gün davam edən təlimdə iştirakçılar universitetin fəaliyyət prosesinin qiymətləndirilməsi, təhsil səviyyəsini, təhsilverən və təhsilalanların fəaliyyətlərinin qiymətləndirilməsində dövlət təhsil standartları, keyfiyyətə dair terminlər, keyfiyyət təminatı, o cümlədən daxili və xarici keyfiyyət təminatının fərqi, qanunvericilikdə daxili keyfiyyət təminatı və digər məsələlər barədə ətraflı məlumatlandırılıb.

Sonda iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb və universitetin müxtəlif istiqamətlərdə beynəlxalq akkreditasiyasına nail olunmasına dair müzakirələr aparılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## "Azərbaycan ədəbiyyatında Şəhriyar zirvəsi" adlı tədbir olub

Babək Rayon Mədəniyyət İdarəsinin tabeliyində çalışan əməkdaşların iştirakı ilə böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın anım günü ilə əlaqədar "Azərbaycan ədəbiyyatında Şəhriyar zirvəsi" adlı tədbir keçirilib.



Ölməz şairin xatirə gününə həsr olunmuş tədbiri giriş sözü ilə açan Mədəniyyət İdarəsinin müdiri Fətəli Axundzadə diqqətə çatdırıb ki, qüdrətli söz ustadı Şəhriyarın ölməz irsi nəinki Şərq, həmçinin dünya ədəbiyyatı xəzinəsinin nadir incilərindəndir. Vurğulanıb ki, poetik yaradıcılığı ilə ürəklərə yol tapan şair geniş oxucu kütləsinin sonsuz məhəbbətini qazanıb.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, dosent Ramiz Qasımov çıxış edərək bildirib ki, Şəhriyar yaradıcılığı həmişə tədqiqatçı alimlərin diqqət mərkəzində olub. Çıxışda akademiklər Budaq Budaqov və Bəkir Nəbiyev, ədəbiyyatşünas alim, şair Hökümə Billuri, pedaqogika üzrə fəlsəfə doktoru Əjdər Ağayev, filologiya elmləri üzrə fəlsəfə doktoru Esmira Fuad və başqalarının ədibin həyat və yaradıcılığı haqqında dəyərli monoqrafiyalar qələmə aldığı nəzərə çatdırılıb.

Tədbirdə "Şərq qapısı" qəzetinin müxbiri Fariz Əhmədov Ümummilli Lider Heydər Əliyevin böyük şairimiz Şəhriyar irsinə böyük rəğbət göstərərək şairin 90 illiyində imzaladığı Sərəncamın ona dövlət səviyyəsində ehtiramın göstəricisi olduğunu bildirib, Ulu Öndərin müsahibələrinin birində "sevdiyiniz şair?" sualına "Şəhriyar", – deyə cavab verdiyini tədbir iştirakçılarına xatırladıb.

Sonda idarənin tabeliyində çalışan əməkdaşlar şairin şeirlərindən bədii qiraət edib, səhnəciklər göstərib, musiqi nömrələri səsləndiriblər. İdeya müəllifi Fariz Əhmədov olan tədbirə videotəqdimatla yekun vurulub.

✍ **Fariz ƏHMƏDOV**

## Kitabsız qalmayın, kitabla qalın

*Artıq yay tətilini başa vuraraq yeni dərs ilinə başladıq. Tətil dövründə kimisi asudə vaxtını səmərəli keçirərək idmanla məşğul olub, kimisi mütaliə və ya öz dərs mövzularını təkrar edib. Günün bütün vaxtını dincəlməyə üstünlük verən şagirdlər də az olmayıb.*



Mənə sual versələr ki, şagirdlər yay tətilini və ümumiyyətlə, boş vaxtlarını səmərəli keçirməsi üçün daha çox nə etməlidirlər? Mən mütaliəni seçərəm. Niyə məhz mütaliə? Çünki mütaliə etmək şagirdlərin, ilk növbədə, özünü ifadə etmək bacarığını formalaşdırır. Onların söz ehtiyatını artırır. Şəxsiyyət olaraq insanın formalaşıb kamilləşməsində, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, cəmiyyət hadisələrinə çevik münasibət bəsləməsində, bədii təxəyyülünün inkişafında, bir çox hallarda isə həyat yolunun müəyyənləşməsində mütaliə müstəsna əhəmiyyət kəsb edir.

Böyük Azərbaycan şairi Qasım bəy Zakirin kitablar haqqında çox gözəl fikri vardır:

*Axmaqlarla oturub-durmaqdansa,*
*Kitabla tənha oturmaq yaxşıdır.*

Görkəmli şairimiz Süleyman Rüstəm də kitaba, mütaliəyə böyük dəyər verərək şeirlərinin birində yazır:

*Hər evin yaxşı kitabdır bəzəyi,*
*Döyünür onda həyatın ürəyi.*
*Onun hər kəlməsi bir işıq mənbəyidir,*
*Bir əməl mənbəyidir, bir yaraşıq mənbəyidir.*

Biz texnologiya əsrində yaşayırıq. Bu gün hər bir kitabın elektron, audio formatı mövcuddur. Şagirdlər, hətta harasa gedərkən qulaqcıq vasitəsilə həmin kitabların səsli formasını dinləyə bilərlər. Bu üsuldan, demək olar ki, mən iki ildir, istifadə edirəm və nəticəsini də görmüşəm.

Aktual məsələlərdən biri də şagirdlərin mütaliə prosesinə texnoloji vasitələrin maneə törətməsidir. Düşünürəm ki, bu problemin aradan qaldırılması üçün şagirdlər düzgün və maraqlı kitablar seçməlidirlər. Əgər şagirdə maraqlı kitab seçilib alınmasa, onda onun mütaliəyə həvəsi azalar, hətta bu vərdiş yox ola bilər. Önəmli bir məqama toxunmaq istəyirəm ki, hər kəs kitaba öz dostu kimi yanaşsa, o zaman ona ən maraqsız gələn kitab belə maraqlı olar. Hansı kitabı oxumağımız çox vacibdir?! Hər mövsümdə fərqli paltar geyinirik – qışda qalın, yayda nazik. Kitab alarkən də ruh halımızın, necə deyərlər, "mövsümünə" baxmalıyıq.

Kitab insanların ən yaxşı, sadiq, can dostudur. Təkcə böyüklərin yox, uşaqların şirin xəyal dünyasının sirli məkanlarına aparan nağıllar, həyəcanlı hekayələr, bizi aydınlığa qovuşduran, içi məlumat dolu neçə-neçə kitab var.

Hesab edirəm ki, biz uğur qazanmaq istəyiriksə, təkcə dərs kitablarını oxumaqla kifayətlənməməliyik. Bədii kitablar dəryasına da baş vurmalıyıq. Çünki kitablar ən səbirli müəllimlərimiz kimidir. Onlara hər an əlimiz çata bilir. İstədiyimiz vaxt onun içindəki dünyaya daxil ola bilərik. Uca Rəbbimizin Peyğəmbərimizə ilk əmri "Oxu!" olmuşdur. Hər məlumat oxumaqla öyrənilir. Gəldiyim nəticə budur ki, oxumaq, mütaliə etmək bizim ən vacib vəzifələrimizdən biridir. Çünki mədəni dünya məlumat və texnologiya üzərində qurulub. Həyatda baş çıxarmaq, sağlam şəxsiyyətə sahib olmaq, düşüncə və xəyalları inkişaf etdirmək kitab oxumaqla mümkündür.

Zənnimcə, ən sıxıntılı anınızda belə əlinizə kitab alsanız, elə bir sehrli nəsə tapmış olarsınız. Obrazların cildinə girər, məkandan məkana gedər, hadisələrin canlı şahidinə çevrilmiş olarsınız.

Kitabsız qalan bir cəmiyyət keçmişini unudar! Gələcəyini planlaşdıra bilməz! Mədəniyyəti, adət-ənənəsi, dəyərləri yoxa çıxar! Odur ki, kitabsız qalmayın, kitabla qalın!

**Əmir İMANOV**

***Naxçıvan şəhər M.T.Sidqi adına 4 nömrəli tam orta məktəbin X sinif şagirdi***

## Bilik Gününə həsr olunmuş sərgi

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Optimal Akademiya və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə 15 sentyabr – Bilik Gününə həsr olunmuş "Art day" adlı sərgi keçirilib.*



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva açıb. Qeyd olunub ki, sərgidə gənc müəllim və onların şagirdlərinin 100-dən çox əl işi təqdim olunur. Bu rəsm işlərində uşaqların istək və arzuları, xəyalları və daxili dünyası öz əksini tapmaqla Vətənə sevgi və hörmət, insana sevgi motivləri ön planda durur.

"Optimal Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Murad Rüstəmov qeyd edib ki, rəsm kurslarına 5 yaşdan etibarən şagirdlər qəbul edilir. Vurğulanıb ki, incəsənət uşaqları kiçik yaşdan etibarən formalaşdırır, bu səbəbdən azyaşlı uşaqlar da kursa qəbul edilir.

Kursun müəllimi Yaqut Əhmədova sərgidə iştirak edən şagirdlərin fəaliyyəti barədə məlumat verib, rəsm həvəskarlarına uğurlar arzu edib.

Sonda sərgi iştirakçılarına diplom təqdim edilib, sərgiyə baxış olub.

✍ **Aysel YUSİFZADƏ**

### İtmişdir

Şərur rayonunun Şəhriyar kənd sakini Əsədov Elman Hüseyn oğlunun adına olan JN-49 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Arbatan kənd sakini Nəbiyev Sultan Nəsib oğlunun adına olan 102013003883 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Güznüt kənd sakini Əliyev İman Şirin oğlunun adına olan JN-552$^{A}$ nömrəli, 10310005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

www.serqqapisi.gov.az

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 541